**AUDİT 2025, 2 (48), səh. 38-46.**
**AUDIT 2025, 2 (48), pp. 38-46.**
**АУДИТ 2025, 2 (48), стр. 38-46.**

**DOI: 10.59610/bbu2.2025.2.4**

*Həsənov İsmayıl Cəfər oğlu,*
*iqtisad elmləri namizədi, dosent,*
*Bakı Biznes Universiteti,*
*E-mail: i_hasanov_65@mail.ru;*

*Əlizadə Şəmşad Nəbi oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*E-mail: shamo.88@mail.ru*
*© Həsənov İ.C., Əlizadə Ş.N., 2025*

**UOT: 368(479.24)**
**JEL: G22, G28, L10**

# AZƏRBAYCANIN SIĞORTA BAZARININ MÖVCUD PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** – müasir dövrdə Azərbaycanın sığorta bazarındakı problemlərin həlli yollarının müəyyənləşdirilməsi istiqamətində təklif və tövsiyələrin verilməsindən ibarətdir.

**Tədqiqatın metodologiyası** – tədqiqat işində ümumiləşdirmə, iqtisadi təhlil, məntiqi ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – bu tədqiqat müxtəlif maraqlı tərəflər, o cümlədən sığorta şirkətlərində çalışanlar, maliyyə sahəsində təhsil alanlar və sığorta ekspertləri üçün əhəmiyyətli ola bilər.

**Tədqiqatın nəticəsi** – sığorta bazarının uğurlu fəaliyyətinin təmin edilməsi məqsədilə mövcud problemlərin aşkar edilməsi və onların aradan qaldırılması olduqca zəruridir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Azərbaycanın sığorta bazarında mövcud problemlərin həlli yolları müəyyən edilmiş və sistemləşdirilmişdir.

**Açar sözlər:** sığorta bazarı, problemlər, sığorta şirkətləri, həyat sığortası.

## G İ R İ Ş

Maliyyə bazarının mühüm tərkib hissəsi sayılan sığorta bazarı müasir dövrdə iqtisadi inkişafda əhəmiyyətli rola sahibdir. Sığorta bazarı dünyanın bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrində geniş yayılmışdır. Əhalinin həyatının, sağlamlığının və o cümlədən əmlakının təminat altına alınması və qorunması baxımından sığorta bazarı müstəsna əhəmiyyət daşıyır. Sığorta bazarı həmçinin sosial həyatda da böyük rol oynayır. Belə ki, əhalinin müxtəlif sığorta xidmətlərindən istifadə etməsi onların rifah səviyyəsinin yüksəlməsinə səbəb olur. Digər

AUDİT 2025, 2 (48), səh. 38-46.
AUDIT 2025, 2 (48), pp. 38-46.
АУДИТ 2025, 2 (48), стр. 38-46.

tərəfdən sığorta bazarı ümumi daxili məhsulun artımında, iqtisadi sabitliyin, məşğulluğun və eləcə də digər makroiqtisadi göstəricilərin təmin edilməsində böyük üstünlüyə sahibdir. Bu səbəbdən iqtisadiyyatda sığorta bazarının əhəmiyyətinin danılmaz olduğu qeyd edilməlidir.

Sığorta bazarının əhəmiyyəti müasir dövrdə Azərbaycanda da müşahidə olunur. Əvvəlki dövrlərdən fərqli olaraq son illər Azərbaycanın sığorta bazarında mühüm irəliləyişlər hiss edilməkdədir. Belə ki, həyat sığortasının inkişafı buna misal ola bilər. Bundan əlavə bir çox sığorta şirkətlərinin yığımlarında əvvəlki dövrlərdən fərqli olaraq artım müşahidə edilməkdədir. Bu da Azərbaycanda sığorta bazarının tədricən inkişaf etdiyini sübut edir.

Lakin aparılan tədqiqartlar və araşdırmalar göstərir ki, Azərbaycanın sığorta bazarında müasir dövrdə bir sıra ciddi problemlər müşahidə edilməkdədir. Bu problemlər müxtəlif səbəblərdən ortaya çıxır və sığorta bazarının inkişafına ciddi şəkildə təsir göstərir. Belə ki, sığorta şirkətlərinə ölkə əhalisinin əksər hissəsinin inamının olmaması, sığorta fəaliyyətinin ancaq paytaxtda inkişaf etməsi, sığorta hadisəsi zamanı verilən ödənişlərin bir çox hallarda lazımi həcmdə olmaması, sığortalıların sığorta şirkətləri tərəfindən kifayət qədər məlumatlandırılmaması hal-hazırda Azərbaycanın sığorta bazarında mövcud olan problemlərdir. Təbii ki, bu problemlər vaxtında müəyyən edilməli və həll edilməlidir. Qeyd edək ki, Azərbaycanın sığorta bazarında mövcud problemlərin aşkar edilməsi və onların aradan qaldırılması müasir dövrdə ən aktual məsələlərdən biri hesab olunur.

Qeyd etməliyik ki, sığorta sektoru son illərdə sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu sektor iqtisadiyyatın şaxələndirilməsi, risklərin idarə olunması və maliyyə sabitliyinin təmin olunmasında mühüm rol oynayır. Xüsusilə 2020–2024-cü illər dövrü, sığorta şirkətlərinin fəaliyyətində maliyyə göstəricilərinin nəzərə çarpacaq dərəcədə artması və bazar strukturunun dinamik dəyişməsi ilə yadda qalmışdır. Bu məqalə həmin dövrdə Azərbaycanın sığorta şirkətlərinin maliyyə göstəricilərini, artım templərini, risk səviyyələrini və bazar tendensiyalarını müqayisəli təhlil etməklə mövcud vəziyyəti qiymətləndirir və inkişaf istiqamətləri təqdim edir.

**Müasir dövrdə Azərbaycanın sığorta bazarında mövcud olan problemlər**

Sığorta fəaliyyətinin inkişafının prioritet istiqamətlərini müəyyən edərkən məlum olur ki, müasir dövrdə Azərbaycanda sığorta bazarında bir çox problemlər mövcud olmaqdadır. Azərbaycanda sığorta bazarının inkişaf etmiş sığorta bazarından müəyyən qədər geri qalması bank, maliyyə, səhiyyə, sənaye və digər sektorlarla birgə, insanların həyat tərzinə də mənfi təsir edir.

Müasir dövrdə Azərbaycanın sığorta bazarında mövcud olan problemlərdən biri insanların sığorta haqqında məlumatlılığının aşağı səviyyədə olmasıdır. Ümumiyyətlə, əhalinin sığorta haqqında məlumatsızlığı onların sığortaya olan inamına da mənfi təsir göstərir. Belə ki, sığorta müqaviləsini imzalayan şəxslər bir çox hallarda imzaladıqları müqavilənin şərtləri ilə tanış olmur, sığorta müqaviləsi üzrə vəzifə və hüquqlarını tam şəkildə bilmirlər. Sığorta müqaviləsində isə sığorta hadisəsi zamanı sığortalıya ödənişin verilməsi və ödənişdən imtina halları xüsusi əhəmiyyət kəsb edir. Bir çox insanların isə sığorta müqaviləsinin şərtlərini ətraflı

AUDİT 2025, 2 (48), səh. 38-46.
AUDIT 2025, 2 (48), pp. 38-46.
АУДИТ 2025, 2 (48), стр. 38-46.

oxumaması və bu haqda məlumatlı olmaması sonda bir çox fəsadların ortaya çıxmasına səbəb olur. Belə ki, sığorta hadisəsinin baş verdiyi təqdirdə sığorta şirkəti tərəfindən sığortalıya ödəniş edilməməsi və ya gözlənilən məbləğdən az ödəniş edilməsi halları onlarda sığortaya olan inamı tamamilə sarsıdır [4, s.33]. Belə hallarda vətəndaşlarla sığorta şirkətləri arasında mübahisə yaranır. Mübahisələrin meydana gəlməsi isə sığorta şirkətlərinin imicinin formalaşmasına mənfi təsir edir. İnsanların sığorta haqqında məlumatsız olmasında yalnız onların istəklərinin az olması deyil, eyni zamanda sığortaçıların məlumatlandırma kampaniyalarını effektiv aparmaması da rol oynayır [2, s.9].

Bu baxımdan Azərbaycanda insanların sığorta xidmətlərinə marağının aşağı olması da qeyd olunmalıdır. Bu əsasən sığortanın əhəmiyyətinə dair maarifləndirmənin yetərsizliyi, sığorta mədəniyyətinin zəif olması və keçmiş təcrübələrdə etimadsızlıq halları ilə bağlıdır. İnsanlar yalnız məcburi sığorta növlərini qəbul edir (məsələn, avtomobil sahiblərinin mülki məsuliyyət sığortası), lakin könüllü sığorta (həyat, əmlak, sağlamlıq və s.) çox zəif inkişaf edib. Bu da Azərbaycanda sığorta bazarının genişlənməsinə mane olur.

Digər tərəfdən sığorta şirkətləri tərəfindən təklif edilən məhsullar həm çeşid, həm də müasirlik baxımından zəifdir. Müştəri ehtiyaclarına uyğun fərdi və kompleks məhsulların olmaması bazarda rəqabətin aşağı səviyyədə olduğunu göstərir. İnnovativ məhsulların olmaması da müasir dövrün tələblərinə cavab vermir. Bu səbəbdən, potensial müştərilər sığortanın onların ehtiyaclarını ödəmədiyini düşünə bilərlər.

Sığorta agentləri və brokerlər bəzən müştərilərə məhsullar haqqında tam və düzgün məlumat verə bilmirlər. Bu isə nəticədə müştərinin gözlədiyi xidməti almaması ilə nəticələnə bilər. Vasitəçilər üzərində nəzarətin zəif olması, qeyri-peşəkar fəaliyyətlərin yayılmasına şərait yaradır və bu da sığorta sektoruna ümumi mənfi təsir göstərir.

Bir çox sığorta şirkətlərində rəqəmsal platformalar hələ də ya yoxdur, ya da kifayət qədər inkişaf etməyib. Onlayn xidmətlərin məhdudluğu, mobil tətbiqlərin zəifliyi, proseslərin avtomatlaşdırılmaması müştəri təcrübəsini çətinləşdirir və rəqəmsal transformasiyanın zəif olduğunu göstərir. Bu həm də pandemiya sonrası dövrdə rəqabət qabiliyyətinə mənfi təsir edir.

Risklərin bölüşdürülməsi üçün istifadə edilən təkrarsığorta sistemləri Azərbaycanda zəif inkişaf edib. Bu səbəbdən, yerli sığorta şirkətləri böyük zərərli hadisələr zamanı zərərin öhdəsindən gəlməkdə çətinlik çəkə bilərlər. Bu isə həm şirkətlər, həm də müştərilər üçün ciddi maliyyə riskləri yaradır.

Qeyd etmək lazımdır ki, bir çox sığorta müştəriləri təcrübələrinə əsasən sığorta şirkətlərinin zərəri tam və vaxtında ödəmədiyini düşünür. Şəffaflığın olmaması, bürokratik proseslər və mübahisələrin məhkəməyə çıxarılması halları sığortaçılara qarşı inamsızlığı artırır. Bu isə həm təkrarən sığorta istifadəsini azaldır, həm də mənfi reputasiya yaradır.

Azərbaycanda sığorta bazarında hökm sürən əsas problemlərdən biri sığortanın ancaq paytaxt Bakıda inkişaf etməsi, regionların bu inkişafdan geri qalmasıdır. Regionlarda əhalinin gəlir səviyyəsinin aşağı olması, işsizlik probleminin mövcudluğu, sığorta şirkətləri tərəfindən

**AUDİT 2025, 2 (48), səh. 38-46.**
**AUDIT 2025, 2 (48), pp. 38-46.**
**АУДИТ 2025, 2 (48), стр. 38-46.**

əhaliyə sığortaya aid lazımi məlumatların verilməməsi kimi amillər respublikanın regionlarında sığorta fəaliyyətinin inkişafının qarşısını alır [3, s.232].

Sığorta bazarının əsas problemlərindən biri də sığorta sahəsində ixtisaslı mütəxəssislərin çatışmazlığıdır. Son zamanlar sığorta sektorunda yüksəlmə dinamikasının olmasına rəğmən, sığorta bazarında hələ də mütəxəssis çatışmazlığı hökm sürür. Sığorta sahəsində ixtisaslı kadrların az olması sığorta xidmətlərindən istifadə etmək istəyən insanların məlumatlılıq səviyyəsinə də mənfi təsir edir. Eyni zamanda qeyd olunmalıdır ki, sığorta sahəsində çalışan mütəxəssislərin çoxu ya kifayət qədər təcrübəyə malik deyil, ya da mövcud bazarın tələblərinə cavab vermir. Bu isə həm idarəetmədə, həm də müştəri xidməti səviyyəsində problemlərə yol açır. Sahə üzrə tədris proqramlarının azlığı və təlim imkanlarının zəif olması səbəbindən yeni kadrların yetişdirilməsi çətinləşir. Bu problem də Azərbaycanda sığorta bazarının müasir standartlar səviyyəsində inkişafına maneçilik yaradır.

Azərbaycanda sığorta bazarının inkişaf tempinin iqtisadiyyatın digər sahələri ilə müqayisədə geridə qalmasına “Sığorta haqqında” Azərbaycan Respublikasının qanununda mövcud olan çatışmazlıqlar da təsir göstərirb. Onu da vurğulayaq ki, müstəqillikdən sonra ilk dəfə 1993-cü ildə imzalanan bu qanun, 1999-cu ildə müəyyən qədər təkmilləşdirilərək yenidən qəbul olunmuşdur. Bu qanun əvvəlki illərlə müqayisədə müasir tələblərə uyğun olsa da, bir sıra boşluqlar mövcud idi. Qanun nəhayət, 2007-ci ildə qüvvədən düşdü və 2007-ci ilin dekabr ayında yeni “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunu qəbul olundu. Bu qanunun əvvəlki qanunlara nisbətən daha da təkmilləşdirilmiş formada olduğunu qeyd edə bilərik. Ancaq buna baxmayaraq sığorta qanunvericiliyində yenə də müəyyən boşluqlar qalmaqdadır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, sığorta sahəsindəki qanunlar və qaydalar həm sığortalının və həm də sığortaçıların maraqlarını qorumalıdır. Əks halda onlar arasındakı etimadın səviyyəsi gözlənilən səviyyədə olmayacaqdır.

Azərbaycanda sığorta bazarında mövcud olan əsas problemlərdən biri də sığorta şirkətlərinin kapitallaşması ilə bağlıdır. Sığorta şirkətlərinin kapitallaşma səviyyəsinin qənaətbəxş olmaması və sığorta bazarının az inkişaf etməsi bu sektorun inkişaf səviyyəsinin bir sıra Avropa ölkələri ilə nisbətdə 25-30 dəfə geri qalmasına səbəb olub. Bu gün sığorta bazarının digər inkişaf etmiş ölkələrlə nisbətdə az inkişaf etməsi məhz sığorta şirkətlərinin kapitallaşması səviyyəsinin yüksək olmamasının nəticəsidir.

Qeyd etdiyimiz bu problemlər Azərbaycanda sığorta bazarına və sığorta şirkətlərinin fəaliyyətinə mənfi təsir göstərir. Azərbaycanın sığorta bazarında bu cür problemlərin mövcud olması əhalidə sığorta şirkətlərinə qarşı inamsızlıq formalaşdırır ki, nəticədə onlar sığorta məhsullarından istifadə etmək istəmir.

**Azərbaycanın sığorta bazarında ortaya çıxan problemlərin aradan qaldırılması yolları**

Məlum olduğu kimi, sığorta fəaliyyətinin əsas məqsədi ancaq müəssisə və əhali maraqlarının təbii fəlakətlərdən mühafizəsi deyil, həm də onların maraqlarının gözlənilməz dəyişikliklərdən qorunmasını təmin etməkdən ibarətdir. Çünki mövcud olan problemləri araşdırmadan

**AUDİT 2025, 2 (48), səh. 38-46.**
**AUDIT 2025, 2 (48), pp. 38-46.**
**АУДИТ 2025, 2 (48), стр. 38-46.**

və onları aradan qaldırmadan sığorta bazarının günün tələblərinə uyğun formalaşdırılması qeyri-mümkündür. Odur ki, Azərbaycanda sığorta fəaliyyətinin inkişafının prioritet istiqamətlərini doğru müəyyən etmək, sığorta sahəsində ortaya çıxan problemləri vaxtında həll etmək və sığorta bazarını qabaqcıl ölkələrdəki səviyyəyə çatdırmaq bugün qarşıda duran ən zəruri məsələlərdən biri sayılır. Bu baxımdan Azərbaycanın sığorta bazarında ortaya çıxan problemlərin aradan qaldırılması üçün sığorta sahəsində normativ-hüquqi və maliyyə-iqtisadi bazanın yaradılması çox böyük əhəmiyyətə malikdir. O cümlədən, iqtisadi sabitliyin əsas amili olaraq sığortanın rolunun yüksəldilməsi və sığortaçılar tərəfindən sığorta qanunvericiliyinin tələblərinə riayət edilməsinə dövlət nəzarət sisteminin gücləndirilməsi sığorta sahəsində problemlərin azalmasına effektiv təsir göstərə bilər.

Hal-hazırda Azərbaycanın sığorta bazarında ortaya çıxan problemlərin aradan qaldırılması üçün vacib məsələlərdən ən önəmlisi sığortaçıların ödəmə qabiliyyətinin möhkəmləndirilməsidir. Qeyd edək ki, son zamanlar qəzaların və bədbəxt hadisələrin günü-gündən artması sığorta şirkətlərini böyük öhdəliklərlə qarşı-qarşıya qoyur. Bəzən böyük zərərli sığorta hadisələrinin baş verməsi sığorta şirkətlərinin işini çətinləşdirir və bir çox hallarda sığorta şirkətləri bu zərərlərin əvəzini ödəmə gücündə olmurlar. Bu səbəbdən sığortaçıların ödəmə qabiliyyətinin gücləndirilməsi çox önəmli faktordur. Hər bir ölkədə olduğu kimi Azərbaycanda da böyük həcmli zərərlərə qarşı ən etibarlı üsullardan biri təkrar sığorta hesab olunur. Təkrar sığorta böyük zərərlərin ortaya çıxmasının səbəb olacağı maliyyə itkilərinin qarşısının alınması məqsədilə sığortalanmış böyük həcmli risklərin müəyyən bir hissəsinin ötürülməsi prosesidir. Bu proses həmçinin sığorta hadisəsi zamanı yaranan böyük zərərlərə qarşı sığorta şirkətinin özünü sığortalaması kimi başa düşülür [5].

Gələcəkdə sığortalanmış böyük həcmli risk üzrə sığorta hadisəsi baş verdikdə böyük zərərlər ortaya çıxır. Əgər sığortalanmış risklər üzrə təkrar sığorta əməliyyatı varsa bu zaman sığorta şirkətləri böyük həcmli riski tək başına ödəmək məcburiyyətində qalmayacaq. Deməli, zərərin bir hissəsi riskin ötürüldüyü digər bir sığortaçı tərəfindən ödəniləcəkdir. Bu baxımdan Azərbaycanda fəaliyyət göstərən sığortaçılar sığortalılar qarşısında böyük həcmli risklər üzrə öhdəliklərə etibarlı təminat yaradılması məqsədilə onları həm ölkə daxilində, həm də ölkə xaricində fəaliyyət göstərən sığortaçılara ötürürlər.

Sığortaçıların üzərinə götürdüyü sığorta riskləri üzrə öhdəlikləri əsasən ehtiyat fondları ilə təmin olunur. Bu səbəbdən sığorta şirkətlərinin ödəmə qabiliyyəti probleminin aradan qaldırılması üçün sığorta ehtiyatları düzgün formalaşdırılmalıdır. Potensial müştərilərin seçilməsi, investisiyanın lazımi və gəlir gətirən sahələrə yönəldilməsi, sığortalılardan sığortalanmış risklər üzrə sığorta haqlarının vaxtında toplanması, baş verə biləcək zərərlərin düzgün proqnozlaşdırılması, onların qiymətləndirilməsi və zərərlər üçün lazımi vəsaitlərin ayrılması sığorta şirkətlərinin ehtiyat fondlarının düzgün formalaşdırılması üçün əsas amillər hesab olunur.

Azərbaycanın sığorta bazarında mövcud olan problemlərin aradan qaldırılması üçün sığorta bazarının araşdırılması mühüm əhəmiyyətə malikdir. Belə ki, sığorta bazarında mövcud vəziyyət haqqında lazımi məlumatlar toplamaq, onları düzgün qiymətləndirmək, potensial

AUDİT 2025, 2 (48), səh. 38-46.
AUDIT 2025, 2 (48), pp. 38-46.
АУДИТ 2025, 2 (48), стр. 38-46.

müştərilərilərlə görüşmək və onlara sığortanın üstünlükləri haqqında faydalı məlumatlar vermək sığorta şirkətləri üçün çox zəruri məsələdir. Qeyd edək ki, sığorta bazarının araşdırılması zamanı əhalinin sığortanın hansı növünə daha çox ehtiyacı olduğu da nəzərə alınmalıdır. Bu baxımdan əhalinin ehtiyacına uyğun olaraq bazara yeni sığorta məhsulları çıxarmaq, sığorta xidmətlərinin keyfiyyətini yüksəltmək və sığorta şərtlərini asanlaşdıraraq əhalinin ödəmə qabiliyyətinə uyğunlaşdırmaq da unudulmamalıdır. Bunun üçün şirkətin marketinq fəaliyyəti gücləndirilməli, bu sahədə yüksək təcrübəyə malik mütəxəssislər cəlb olunmalı və müştəri razılığı təmin edilməlidir. Sığorta bazarında yaranmış problemlərin azaldılması üçün ən mühüm faktorlardan biri dövlət dəstəyidir. Belə ki, dövlət Azərbaycanda sığorta şirkətlərinin fəaliyyətinə, sığorta bazarının inkişafına və sığorta sisteminin mövcud vəziyyətinə nəzarət etməli ortaya çıxan problemlərin aradan qaldırılması üçün zəruri tədbirlər həyata keçirməlidir. Odur ki, dövlət tərəfindən sığorta şirkətlərinə verilən dəstək onların inkişafının sürətlənməsi, sığorta bazarında ortaya çıxan problemlərin həll edilməsi və eləcə də sığorta bazarının təkmilləşdirilməsi baxımından böyük zərurət doğurur.

## Y E K U N

Tədqiqat işinin nəticəsi kimi qeyd etmək olar ki, bütün ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da sığorta bazarının inkişafına və uğurlu fəaliyyətinə bir sıra ciddi problemlər mənfi təsir göstərməkdədir. Bu problemləri vaxtında aşkar etmək və onları aradan qaldırmaq hər bir sığorta şirkəti üçün mühüm əhəmiyyət kəsb edir. Tədqiqat işində ümumən Azərbaycanın sığorta bazarında mövcud olan və sığorta şirkətlərinin fəaliyyətinə birbaşa və dolayı yolla təsir göstərən problemlər müəyyən edilmiş və onların aradan qaldırılması üzrə tədbirlər planı hazırlanmışdır.

Azərbaycanın sığorta bazarının təhlili zamanı müəyyən olunmuşdur ki, hələ də hökm sürən bir sıra problemlər sığorta şirkətlərinin inkişafına mane olur. Bu problemlərdən biri ondan ibarətdir ki, ölkədə sığorta fəaliyyəti ancaq paytaxtda inkişaf etmişdir. Regionlarda sığorta fəaliyyətinin mövcud vəziyyətini müşahidə etdikdə isə məlum olur ki, orada yaşayan insanların çox az hissəsi sığorta xidmətlərindən istifadə edir. Bunun səbəbi isə regionlarda əhalinin gəlir səviyyəsinin aşağı olması, işsizlik meyillərinin müşahidə olunması, sığorta şirkətləri tərəfindən əhaliyə sığortaya aid lazımi məlumatların verilməməsi kimi faktorlardır. Bu istiqamətdə sığorta şirkətləri güzəştli sığorta xidmətlərini təklif etməlidir ki, regionlarda yaşayan aztəminatlı insanlar da sığorta xidmətlərindən istifadə edə bilsin.

Hökm sürən əsas problemlərdən biri sığorta şirkətlərində ixtisaslı kadrların və mütəxəssislərin çatışmazlığıdır. Son zamanlar sığorta sektorunda artım dinamikasının müşahidə edilməsinə baxmayaraq, sığorta bazarında hələ də mütəxəssis çatışmazlığı vardır. Qeyd edək ki, sığorta şirkətlərində ixtisaslı kadrların çatışmazlığı bir çox hallarda sığorta tariflərinin, sığorta haqlarının və sığorta risklərinin düzgün hesablanmamasna səbəb olur. Digər tərəfdən bu sahədə ixtisaslı kadrların az olması sığorta xidmətlərindən istifadə etmək istəyən insanların məlumatlılıq səviyyəsinə də mənfi təsir edir. Bunları nəzərə alaraq qeyd etmək olar ki, sığorta şirkətləri yüksək savada və peşəkar təcrübəyə malik mühasibləri, marketoloqları, aktuarları və menecerləri işə cəlb etməli, onları daim stimullaşdırmalı və onların inkişafı üçün lazımı tədbirləri görməlidir.

Sığorta sahəsində mövcud olan problemlərdən biri "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununda olan çatışmazlıqlardır. Son olaraq 2007-ci ildə qəbul olunan

**AUDİT 2025, 2 (48), səh. 38-46.**
**AUDIT 2025, 2 (48), pp. 38-46.**
**АУДИТ 2025, 2 (48), стр. 38-46.**

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununa nəzər saldıqda, bu qanunun əvvəlki qanunlara nisbətən daha da təkmilləşdirilmiş formada olması müşahidə olunur. Ancaq buna baxmayaraq sığorta qanunvericiliyində yenə də boşluqlar qalmaqdadır. İnkişaf etmiş ölkələrin sığorta təcrübəsi göstərir ki, sığorta sahəsindəki qanunlar və qaydalar həm sığortalının, həm də sığortaçıların maraqlarını qorumalıdır. Ölkədə sığorta şirkətlərinin inkişafının təmin olunması və təkmilləşmiş sığorta bazarına nail olunması məqsədilə sığorta haqqında qanuna ciddi dəyişikliklər və əlavələr etmək bu gün reallaşdırılması vacib olan məsələdir. Lakin qeyd etməliyik ki, sığorta qanunvericiliyinin təkmilləşdirilməsi, orada olan boşluqların aradan qaldırılması sığorta şirkətlərinin həll edəcəyi bir məsələ deyil. Bu məsələ birbaşa dövlətin səlahiyyətindədir. Azərbaycanın sığorta sistemində ortaya çıxan problemlərin aradan qaldırılması üçün sığorta sahəsində normativ-hüquqi və maliyyə-iqtisadi bazanın təkmilləşdirilməsi çox böyük əhəmiyyətə malikdir. O cümlədən iqtisadi sabitliyin əsas amili olaraq sığortanın rolunun yüksəldilməsi və sığortaçılar tərəfindən sığorta qanunvericiliyinin tələblərinə riayət edilməsinə dövlət nəzarət sisteminin gücləndirilməsi sığorta sahəsində problemlərin azalmasına effektiv təsir göstərə bilər.

Azərbaycanın sığorta bazarında yaranan problemlər həyat sığortası sahəsində də özünü büruzə verir. Həyat sığortasının ölkəmizdə tam inkişaf etməməsinin əsas səbəblərindən biri insanlarda bu sığorta növünə marağın az olmasıdır. Son zamanlar istehsalatda bədbəxt hadisələr, iş qəzaları və ölüm hallarının sayı artmaqdadır. Bu cür halların gözlənilməz anda baş verməsi isə hər zaman işçilərin xəsarət alması, əmək qabiliyyətini itirməsi və ya ölməsi ilə nəticələnir. Bu baxımdan insanların həyatını təhlükə altında qoyan bədbəxt hadisələrin mənfi nəticələrindən qorunması məqsədilə həyat sığortasının üstünlüklərinin, faydalarının və müsbət cəhətlərinin onlara ətraflı izah edilməsi son dərəcə əhəmiyyətlidir. Sığorta bazarının inkişaf etdirilməsi məqsədilə insanlara göstərilən sığorta xidmətləri keyfiyyətinin yüksəldilməsi bütün sığorta şirkətləri tərəfindən təmin olunmalıdır.

Qeyd edək ki, Azərbaycanın sığorta bazarında mövcud olan problemlərin aradan qaldırılması ölkədə sığorta fəaliyyətinin daha da təkmilləşməsinə və sığorta bazarının effektiv inkişafına səbəb ola bilər. Bu səbəbdən mövcud olan problemlərin aradan qaldırılması yolu ilə inkişaf etmiş bir sığorta bazarının reallaşdırılması müasir dövrdə ən əhəmiyyətli və aktual məsələlərdən biridir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. "Sığorta fəaliyyəti haqında" Azərbaycan Respublikasının Qanunu: [elektron resurs].- Bakı, 2007. - http://www.e-qanun.az/framework/13983
2. Əliyeva, L.Z. Azərbaycanda sığorta sistemi: iqtisadi və sosial proseslərə multiplikator təsir kimi / Əliyeva L.Z.– Bakı: Qanun nəşriyyatı, - 2011. - 108 s.
3. Əlizadə, Ş.N. Azərbaycan iqtisadiyyatında sığorta sisteminin yeri: problemlər və perspektivlər // - Bakı: Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə jurnalı, - 2015. № 2, (50), s. 231-236.
4. Alizade S.N. The Modern Situation of Insurance System in Azerbaijan // New York: Journal of Microeconomics and Macroeconomics, - 2015. Vol 3, № 2, - p. 30-34.
5. Reinsurance: http://www.investopedia.com/terms/r/reinsurance.asp

**AUDİT 2025, 2 (48), səh. 38-46.**
**AUDIT 2025, 2 (48), pp. 38-46.**
**АУДИТ 2025, 2 (48), стр. 38-46.**

*Ismayil Jafar Hasanov,*
*Ph.D. (Econ.), Associate Professor,*
*Baku Business University,*
*E-mail: i_hasanov_65@mail.ru;*

*Shamshad Nabi Alizadeh,*
*Ph.D. (Econ.),*
*Baku Business University,*
*E-mail: shamo.88@mail.ru*
*© I.J. Hasanov, Sh.N. Alizadeh, 2025*

# CURRENT PROBLEMS OF AZERBAIJAN'S INSURANCE MARKET AND WAYS TO SOLVE THEM

## A B S T R A C T

**The purpose of the research** is to propose recommendations for identifying and resolving the current problems in Azerbaijan's insurance market.

**The methodology of the research** – the study applies methods of synthesis, economic analysis, and logical generalization.

**The practical importance of the research** – the findings of the research can be useful for various stakeholders, including employees of insurance companies, students in the field of finance and insurance experts.

**The results of the research** – identifying and eliminating existing problems is essential for ensuring the effective functioning of the insurance market.

**The originality and scientific novelty of the research** – the study systematically identifies and classifies the existing problems in Azerbaijan's insurance market and proposes relevant solutions.

**Keywords:** insurance market, problems, insurance companies, life insurance.

**AUDİT 2025, 2 (48), səh. 38-46.**
**AUDIT 2025, 2 (48), pp. 38-46.**
**АУДИТ 2025, 2 (48), стр. 38-46.**

*Гасанов Исмаил Джафар оглы,*
*кандидат экономических наук, доцент,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: i_hasanov_65@mail.ru;*

*Ализаде Шамшад Наби оглы,*
*доктор философии по экономике,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: shamo.88@mail.ru*
*© Гасанов И.Дж., Ализаде Ш.Н., 2025*

# СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ СТРАХОВОГО РЫНКА АЗЕРБАЙДЖАНА И ПУТИ ИХ РЕШЕНИЯ

## Р Е З Ю М Е

**Цель исследования** - разработка предложений и рекомендаций по выявлению и устранению актуальных проблем на страховом рынке Азербайджана.

**Методология исследования -** в исследовании использованы методы обобщения, экономического анализа и логического синтеза.

**Практическая значимость исследования -** результаты исследования могут быть полезны для различных заинтересованных сторон, включая сотрудников страховых компаний, студентов финансовых специальностей и экспертов в области страхования.

**Результаты исследования -** для эффективного функционирования страхового рынка необходимо выявление и устранение существующих проблем.

**Оригинальность и научная новизна исследования -** в работе систематизированы и предложены решения по устранению существующих проблем на страховом рынке Азербайджана.

**Ключевые слова:** страховой рынок, проблемы, страховые компании, страхование жизни.

*Məqalə redaksiyaya daxil olmuşdur: 14.02.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 25.03.2025*
*Çapa qəbul olunmuşdur: 02.05.2025*

*Дата поступления статьи в редакцию: 14.02.2025*
*Отправлено на повторную обработку: 25.03.2025*
*Принято к печати: 02.05.2025*

*The date of the admission of the article to the editorial office: 14.02.2025*
*Send for reprocessing: 25.03.2025*
*Accepted for publication: 02.05.2025*